# 2026

# Topçubaşov Məhkəmə Müsabiqəsi

## Müsabiqə İşi


**Müəllif:**
"Dentons Europe (Central Asia) Limited" şirkətinin Azərbaycan Respublikasındakı filialı


BAKI DÖVLƏT UNİVERSİTETİ **MƏHKƏMƏ MÜSABİQƏ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR


Veb-sayt: bsumootcourtsociety.org
E-poçt: info@bsumootcourtsociety.org

§1 "AzeBytecs" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – "AzeBytecs" MMC) 2012-ci ildən etibarən Azərbaycanda bulud texnologiyaları, server hostinqi, proqram təminatı, sistem inteqrasiyası, ödəniş sistemləri və məlumat analitikası sahəsində fəaliyyət göstərən aparıcı şirkətlərdən biridir. O, 1800 işçi ilə rəqəmsal suverenlik prinsipi əsasında fəaliyyət göstərərək ölkənin rəqəmsal infrastrukturunu milli ərazi çərçivəsində və daxili nəzarət altında saxlamağa önəm verir. "AzeBytecs" MMC dövlət və vətəndaş məlumatlarının milli ərazidə qorunmasının, həmçinin əməliyyatların təhlükəsizliyi üçün məlumat mərkəzlərinin xarici təsirlərə açıq olmamasının həyati əhəmiyyət daşıdığını irəli sürür.

§2 Ölkənin ən böyük məlumat mərkəzi "DataHub" "AzeBytecs" MMC-yə məxsusdur. O, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi də daxil olmaqla, bir çox dövlət qurumu və iri özəl şirkətlərin məlumat bazalarını "DataHub"-da yerləşdirir *(hosting)* və bununla da onlara texnoloji dəstək göstərir. "AzeBytecs" MMC "AzeCware", "StateCloud", "ZəkaNet" kimi hökumət layihələrində iştirak etməklə dövlət qurumlarının rəqəmsallaşdırılmasında əsas texnoloji tərəfdaş rolunu oynayır. Bütün bunlarla yanaşı, o, 2021-ci ildə "AzeMonexPay" ödəniş platformasını istifadəyə vermişdir. Platforma dövlət və böyük pərakəndə təşkilatların onlayn ödəniş əməliyyatlarını həyata keçirir.

§3 "AzeBytecs" MMC 2020-ci ildə "DataNoryX" süni intellekt modulunu təqdim etmişdir. Həmin alət vasitəsilə bulud mühitində məlumatların emalı və yerləşdirilməsi təmin edilərək sistemin əməliyyat yükü azaldılmış və qərarvermə prosesləri üçün imkanlar yaradılmışdır. "AzeBytecs" MMC-nin rəhbərliyi həmin sistemin əsasını təşkil edən alqoritmləri və "DataNoryX" modelinin istifadə qaydalarının "nou-hau" statusuna malik olduğunu rəsmi şəkildə elan etmiş və kommersiya sirri rejimini müəyyən etmişdir.

§4 “SmartFinLink” Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – “SmartFinLink” MMC) 2023-cü ildə bir qrup gənc İT və maliyyə mütəxəssisi tərəfindən təsis edilmiş “fintech” startapı olaraq, kiçik və orta sahibkarların elektron ticarət üzrə ödənişlərinin asan şəkildə həyata keçirilməsini təşkil edir. “SmartFinLink” MMC öz məhsullarını, əsasən, “AzeBytecs bulud infrastrukturu” üzərində yerləşdirir. Buna görə də o, texnoloji baxımdan “AzeBytecs” MMC-nin ekosistemindən asılı Tərəfdaş şirkətə çevrilmişdir. “SmartFinLink” MMC “AzeBytecs” MMC-nin tətbiqi proqramlaşdırma interfeyslərinə *(application programming interface - API)* birbaşa çıxış, texnoloji çeviklik və aşağı əməliyyat xərcləri sayəsində bazarda rəqabət üstünlüyü qazanmış və orta hesabla 0,6% komissiya ilə 250-dən çox kiçik və orta sahibkarı müştəri kimi cəlb edə bilmişdir. Onların arasında *“DressLordLand”, “SweetFruitBakery”, “IconNovel”* kimi tanınmış onlayn ticarət platformaları da vardır.

§5 “SmartFinLink” MMC Azərbaycan bazarında bir innovasiya hesab olunan “EasyFinPay” ödəniş modulunu ərsəyə gətirmişdir. Klassik ödəniş modulu olmayan “EasyFinPay” yerli və beynəlxalq ödəniş sistemləri ilə inteqrasiya olunmuş vahid rəqəmsal ekosistem daxilində fəaliyyət göstərir. Onun sayəsində istifadəçilər “Visa”, “MasterCard”, o cümlədən “Apple Pay” və digər elektron pulqabılar vasitəsilə ödənişləri qəbul etməklə yanaşı, həm də xidmətləri, sifarişləri və digər rəqəmsal funksiyaları eyni platforma üzərindən idarə edirlər. “AzeMonexPay” və “EasyFinPay” ödəniş sistemləri oxşar texniki funksiyalara malikdirlər.

§6 Rəsmi göstəricilərə əsasən, “AzeBytecs” MMC-nin Azərbaycanda bulud texnologiyaları bazarında payı 61%, proqram təminatı inteqrasiyası bazarında 30%, rəqəmsal ödəniş sistemlərində isə 57% təşkil edir. Həmçinin “AzeBytecs” MMC-nin 2024-cü il də daxil olmaqla, ümumilikdə on iki dövlət qurumu ilə informasiya texnologiyaları, bulud xidmətləri və rəqəmsal inteqrasiya sahəsində uzunmüddətli əməkdaşlıq müqavilələri mövcuddur. Bu əməkdaşlıqlar sayəsində

“AzeBytecs” MMC bazarda həm texniki, həm də maddi baxımdan üstün mövqe tutmuşdur. “AzeBytecs” MMC-nin nizamnamə kapitalı 120 milyon manat təşkil edir və 2024-cü ilin yekunlarına görə illik dövriyyəsi 300 milyon manatı ötmüşdür.

§7 “AzeBytecs” MMC-nin öz fəaliyyətində əsaslandığı rəqəmsal suverenlik prinsipi ona texniki üstünlük yaratmaqla yanaşı, dövlət informasiya təhlükəsizliyini təmin etməsi, kibertəhlükələrə qarşı dayanıqlı və davamlı rəqəmsal ekosistem qurmasında mühüm rol oynayır. Bununla belə, rəqiblər və bəzi bazar müşahidəçiləri iddia edirlər ki, “AzeBytecs” MMC bu konsepsiyanı bəzən rəqabəti məhdudlaşdırmaq, bazarı öz platformasına bağlamaq və rəqiblərin texniki resurslara çıxışını məhdudlaşdırmaq üçün istifadə edir.

§8 “SmartFinLink” MMC-nin illik dövriyyəsi 2024-cü ilin sonunda 6,5 milyon manat təşkil edirdi, lakin 2025-ci ilin əvvəlində baş verən hadisələrdən sonra dövriyyə ötən ilin müvafiq dövrü ilə müqayisədə 70%-dən çox azalmışdır.

§9 2024-cü ilin noyabr ayının sonunda “AzeBytecs” MMC-nin rəhbərliyi şirkətin bulud infrastrukturu üçün yeni nəsil platformaya – “AzeCloud 5.0” sisteminə keçidi təsdiqləmişdir. Bu qərar rəqəmsal təhlükəsizliyin artırılması, məlumatların qorunması və milli rəqəmsal infrastrukturun dayanıqlılığının gücləndirilməsi məqsədilə qəbul edilmiş və “DataNoryX” modulunun yenilənməsi və risklərin aşkarlanması bacarığının həmin modula öyrədilməsi ilə əsaslandırılmışdır. Beləliklə, sözügedən bulud infrastrukturu risklərin müəyyənləşdirilməsi prosesində də istifadə edilə bilərdi. Keçid həm “AzeBytecs” MMC-nin daxili sistemlərinə, həm də bütün Tərəfdaş ekosistemə şamil olunmalı idi.

§10 “AzeBytecs” MMC 5 dekabr 2024-cü ildə bütün Tərəfdaşlara “Partner Portal” vasitəsilə son xəbər və yenilikləri çatdırmış, həmçinin “AzeCloud

5.0" sisteminə keçidlə bağlı "İnteqrasiya uyğunluğu Təlimatı"nı *(Integration Compliance Manual)* (bundan sonra – Təlimat) göndərmişdir. (*Qoşma 1*) Təlimatda "AzeCloud 5.0" sisteminə keçidlə bağlı yeni təhlükəsizlik standartları, inteqrasiya tələbləri və Tərəfdaş öhdəlikləri göstərilmişdir.

§11 "AzeBytecs" MMC Təlimatla birlikdə Tərəfdaşlara bildirmişdir ki, 2025-ci ilin əvvəlindən təqdim ediləcək yeni modulların sertifikasiyası zamanı Təlimatda nəzərdə tutulmuş əlavə tələblər, o cümlədən həmin yeni modullar üçün Tərəfdaş infrastrukturunda uyğunluğun audit əsasında təsdiqlənməsi tətbiq ediləcək. "AzeBytecs" MMC-nin veb-saytında da müvafiq məqsədlə təqdim edilən audit xidmətinin qiyməti 200 000 AZN olaraq göstərilmişdir. "SmartFinLink" MMC Təlimatla ümumi şəkildə tanış olduqdan sonra suallarını məktub vasitəsilə 13 dekabr 2024-cü ildə "AzeBytecs" MMC-yə göndərmişdir. Məktub Komplayens şöbəsinin baş məsləhətçisi tərəfindən imzalanmışdır.

§12 13 dekabr 2024-cü il tarixində "AzeBytecs" MMC "Partner Portal" vasitəsilə bütün Tərəfdaşlara rəsmi bildiriş göndərmişdir. *(Qoşma 2)* Tərəfdaşlara xəbərdarlıq edilmişdir ki, 15 yanvar 2025-ci il tarixindən etibarən köhnə tətbiqi proqramlaşdırma interfeysləri deaktiv ediləcək və əməkdaşlığa davam etmək istəyən Tərəfdaşlar yeni texniki və müqavilə şərtlərini (*Qoşma 3*) qəbul edərək müvafiq əlavələri imzalamalıdırlar. Sözügedən şərtlər "AzeBytecs" MMC tərəfindən Tərəfdaşlara göndərilən bildirişə əlavə olunmuşdur.

§13 "SmartFinLink" MMC yeni şərtlərlə tanış olduqdan sonra "AzeBytecs" MMC-yə "Partner Portal" vasitəsilə rəsmi sorğu göndərmişdir. Danışıqlar zamanı "AzeBytecs" MMC və "SmartFinLink" MMC audit tələbləri və ödəniş interfeyslərinin sertifikatlaşdırılması şərtləri barədə fikir ayrılığı yaşamışdırlar. "AzeBytecs" MMC "AzeCloud 5.0" platformasına uyğunluğu və milli təhlükəsizlik məlumatlarının qorunmasını təmin etmək məqsədilə auditin zəruri olduğunu bildirmişdir. Lakin

"SmartFinLink" MMC "AzeBytecs" MMC tərəfindən təklif edilən 200 000 AZN məbləğindəki audit xidmətinin bazar qiymətindən baha olduğunu iddia etmişdir. Həmçinin "SmartFinLink" MMC-nin beynəlxalq səviyyədə tanınmış, lakin "AzeBytecs" MMC tərəfindən akkreditasiya olunmamış audit şirkəti tərəfindən sertifikat almaq təklifi rədd edilmişdir. "AzeBytecs" MMC bu təklifi "nou-hau"nun qorunması səbəbi ilə qəbul etmədiyini bildirmişdir. Bununla yanaşı, "AzeBytecs" MMC yalnız *"AzeMonexPay API v2" ilə* işləyən modulların sertifikatlaşdırılmasını həyata keçirdiyini və üçüncü tərəf ödəniş interfeyslərinin sistemin təhlükəsizliyinə potensial təhdid yaratdığını bildirmişdir. "SmartFinLink" MMC danışıqlardan sonra yeni şərtlərə dair müqaviləni imzalayaraq 19 dekabr 2024-cü il tarixində poçt xidmətinə təhvil vermişdir.

§14 "AzeBytecs" MMC "Partner Portal"-da müvafiq uyğunluq tələbinin izahı ilə bağlı video təlimat yerləşdirmişdir. Yeni uyğunluq tələbləri ilə bağlı "AzeBytecs" MMC müvafiq qurumlar və şirkətlərə təlim keçmiş, onlara prosesi izah etmiş, istifadə edilmiş faylları isə öz saytında paylaşmışdır. Buna baxmayaraq, təlim zəruri olmadığından "SmartFinLink" MMC-nin əməkdaşları bu təlimdə iştirak etməmişdirlər.

§15 "SmartFinLink" MMC yeni şərtlərə dair müqaviləni imzaladıqdan sonra "Partner Portal" vasitəsilə "AzeBytecs" MMC-yə rəsmi məktub göndərmişdir. Burada bildirmişdir ki, prosesin mürəkkəbliyi və "SmartFinLink" MMC-nin hazırkı texnoloji bazası nəzərə alınmaqla, 15 yanvar 2025-ci il tarixinədək bütün uyğunluq tələblərini yerinə yetirmək faktiki və texniki cəhətdən qeyri-mümkündür. Həmçinin onların əlində lazımi məlumatların olmadığını və mövcud informasiyaların da uyğunluq üçün "səthi" qaldığını vurğulayaraq həmin məlumatlarla təmin olunmasını istəmişdir. "AzeBytecs" MMC isə bu məktubu cavabsız qoymuşdur.

§16 "SmartFinLink" MMC 8 yanvar 2025-ci il tarixində "Təhlükəsizlik Protokolu"nda *(Security Compliance Clause)* (bundan sonra –

Protokol) tələb olunan standartlara uyğunluq sertifikatlarını əldə etmək üçün "AzeBytecs" MMC-yə müraciət ünvanlamışdır. Müraciətə üç gün sonra "AzeBytecs" MMC-nin Komplayens və audit şöbəsi tərəfindən sənədlərin tam uyğun olmaması cavabı gəlmişdir.

§17 15 yanvar 2025-ci il tarixində şirkətə tətbiqi proqramlaşdırma interfeysinə girişin mümkün olmamasına dair *(API Access Denied)* texniki bildiriş göndərilmişdir. Bildirişdə təhlükəsizlik standartlarına uyğunluq təmin olunmadığından "SmartFinLink" MMC-nin hesabının dayandırıldığı qeyd edilmişdir.

§18 "SmartFinLink" MMC "AzeBytecs" MMC ilə dərhal əlaqə yaradaraq hesabın dayandırılmasının səbəbini soruşmuşdur. "AzeBytecs" MMC-nin müvafiq struktur bölməsi də "SmartFinLink" MMC-nin fəaliyyətinin "2024-cü il Rəqəmsal təhlükəsizlik və uyğunluq Qaydaları"na *(2024 Digital Security and Compliance Policy)* (bundan sonra – Qaydalar) uyğun olmadığını bildirmişdir. "SmartFinLink" MMC Qaydalardan xəbərdar olmadığını, eləcə də müəyyən edilmiş şərtlərin ağır olduğunu və müvafiq Təlimatın mürəkkəb olduğunu, sorğulara isə cavab verilmədiyini bildirmişdir. "AzeBytecs" MMC isə Qaydaların "AzeBytecs" MMC-nin Təhlükəsizlik komitəsi tərəfindən 2024-cü ilin oktyabrında idarə heyətinin qərarı ilə təsdiqləndiyini qeyd etmişdir. Bununla yanaşı, Qaydaların təsdiqləndiyi gün veb-saytda paylaşıldığını və Müqaviləyə əsasən, Tərəfdaşların "AzeBytecs" MMC-nin daxili qaydalarına əməl etməli olduqlarını vurğulamışdır. Qaydalarda da qeyd olunmuşdur ki, platformada yalnız "AzeBytecs" MMC tərəfindən nəzarət edilən və idarə olunan ödəniş mexanizmlərinə üstünlük verilir və "AzeBytecs" MMC-nin bulud infrastrukturu strateji dövlət məlumatlarını daşıdığı üçün yalnız tam daxili nəzarət altında fəaliyyət göstərə bilər.

§19 "SmartFinLink" MMC-nin hesabının dayandırılmasına qədər 250 müştərisindən 180-i "AzeBytecs" MMC-nin bulud infrastrukturunda fəaliyyət göstərirdi. Sözügedən hadisələrdən sonra isə həmin müştərilər

xidmətdən istifadə edə bilməmişdirlər. "SmartFinLink" MMC-yə məxsus hesabın dayandırılmasından qısa müddət sonra isə "AzeBytecs" MMC bu müştərilərə "AzeMonexPay" ödəniş platformasına endirimli komissiya (0.8%) ilə keçid təklif etmişdir. Bu hadisələrdən sonra "SmartFinLink" MMC-nin gəlirləri 70% azalmış, şirkət 35 işçisini ixtisar etmək məcburiyyətində qalmış və 2025-ci ilin aprelində fəaliyyətini müvəqqəti dayandırmışdır.

§20 "SmartFinLink" MMC 22 fevral 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə (bundan sonra – Agentlik) rəsmi müraciət edərək, "AzeBytecs" MMC-nin hərəkətlərinin Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin (bundan sonra – Məcəllə) 16.2.4 və 16.2.9-cu maddələrində nəzərdə tutulmuş hökmran mövqedən sui-istifadə olduğunu iddia etmiş və "AzeBytecs" MMC barəsində tədbir görülməsini tələb etmişdir. *(Qoşma 4)*

§21 Agentlik 2025-ci ilin fevralında iş üzrə icraata başlamışdır. İcraat çərçivəsində "AzeBytecs" MMC, "SmartFinLink" MMC və digər üç rəqəmsal ödəniş platformasından yazılı izahatlar alınmış, "AzeBytecs" MMC-nin "Tərəfdaşlar üçün komplayens Təlimat"ı *(Partner Compliance Manual)*, "Təhlükəsizlik siyasəti" *(Security Access Policy)* adlı sənədlər tələb olunaraq araşdırılmış, həmçinin bazarda fəaliyyət göstərən 15 əsas kiçik və orta biznes (KOB) müştərisi arasında sorğu keçirilmişdir.

§22 Sorğu əsasında müştərilər bazarda "AzeBytecs" MMC-yə alternativ digər provayderlərin xidmət keyfiyyəti və təhlükəsizlik səviyyəsinin "AzeBytecs" MMC-dən aşağı olduğunu qeyd etmişdir. Bununla yanaşı, aşkar olunmuşdur ki, təchizat zənciri üzrə yeddi iri korporativ müştəri (bank, ticarət, telekommunikasiya sektorları üzrə) uzun illərdir, "AzeBytecs" MMC-nin daimi tərəfdaşlarıdır. Bununla belə, bəzi bazar iştirakçıları və rəqiblərin fikrincə, inteqrasiyanın yalnız "AzeBytecs" MMC-nin müəyyən etdiyi şərtlər daxilində və özünün təqdim etdiyi süni

intellekt əsaslı modulla işləməsi digər alternativlərin bazara çıxış imkanlarını daraldır. Bu isə bazarın faktiki olaraq, "AzeBytecs" MMC-nin ekosisteminə bağlı vəziyyətə düşməsinə səbəb olur.

§23 "AzeBytecs" MMC "SmartFinLink" MMC-nin iddialarına münasibətdə texniki təhlükəsizlik, beynəlxalq standartlara uyğunluq, rəqəmsal suverenlik və alternativ bazar imkanlarının mövcudluğu arqumentlərini irəli sürmüşdür. Həmçinin "AzeBytecs" MMC bildirmişdir ki, bulud infrastrukturu yalnız kommersiya məlumatlarını deyil, eyni zamanda milli rəqəmsal təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edən məlumatları daşıyır. Buna görə də Qaydalarda tələb olunan ağır şərtlər, o cümlədən yalnız daxili nəzarət altındakı ödəniş mexanizmlərinə üstünlük verilməsi hökmran mövqedən sui-istifadə kimi qəbul edilə bilməz. Onun "2024-cü il üzrə Risklərin dəyərləndirilməsinə dair Hesabat"ında *(2024 Risk Assessment Report)* "SmartFinLink" MMC-nin tətbiqi proqramlaşdırma interfeyslərində TLS 1.2 protokolundan istifadə etdiyi, "AzeCloud 5.0" sisteminin isə yalnız TLS 1.3 protokolunu dəstəklədiyi əks olunmuşdur. Həmçinin "SmartFinLink" MMC-nin PCI DSS Level 1 və ISO/IEC 27001 sertifikatlarının yenilənmə prosesi başa çatmadığına görə riskli hesab edilmişdir. Əlavə olaraq, 2024-cü ildə "SmartFinLink" MMC-nin sistemində üç dəfə təhlükəsizliklə bağlı insidentin qeydə alındığı və bunlardan birinin istifadəçi məlumatlarının səhv ünvanlara yönləndirilməsi ilə bağlı olduğunu vurğulamışdır.

§24 "AzeBytecs" MMC üçüncü tərəf sistemlərinin platformaya heç bir məhdudiyyət olmadan girişinə icazə verilməsinin milli təhlükəsizlik və rəqəmsal suverenlik baxımından məqsədəuyğun olmadığını qeyd etmişdir. Bununla yanaşı, "AzeBytecs" MMC "nou-hau" məlumatlarını qorumaq məqsədilə istənilən məlumatları təmin etmədiyini, "SmartFinLink" MMC-nin fəaliyyəti üçün həmin məlumatlara ehtiyacın olmadığını, çünki onun digər provayderlərdən infrastruktur icarəyə götürmək və ya öz serverlərini qurmaq imkanının olduğunu bildirmişdir.

Bu prosesin sonunda Agentlik "SmartFinLink" MMC-nin müraciətinə 14 mart 2025-ci il tarixində cavab vermişdir. *(Qoşma 5)*

§25 "SmartFinLink" MMC Agentliyin 14 mart 2025-ci il tarixli cavabından narazı qalaraq 10 aprel 2025-ci il tarixində Topçubaşov İnzibati Məhkəməsinə iddia ərizəsi ilə müraciət etmişdir. "SmartFinLink" MMC iddia ərizəsində Agentliyin qərarının qanunsuz və əsassız olduğunu, Məcəllənin 16.2.4 və 16.2.9-cu maddələrinin düzgün tətbiq edilmədiyini, obyektiv zərurilik anlayışının geniş və əsassız şərh olunduğunu, həmçinin "AzeBytecs" MMC-nin irəli sürdüyü dəlillərin Agentlik tərəfindən müstəqil şəkildə yoxlanılmadan qərarın əsaslandırılmasında istifadə edilməsinin düzgün olmadığını iddia etmişdir. Bununla yanaşı, bazarda bulud infrastrukturu ilə bağlı alternativ həllər mövcud olsa da, "AzeBytecs" MMC-nin "DataNoryX" modulu ilə həyata keçirdiyi məlumat emalı və yerləşdirilmə imkanları olmadan bu alternativ həllərin yetərli səviyyədə səmərəliliyə nail ola bilmədiyi də qeyd olunmuşdur. Bundan əlavə, "AzeBytecs" MMC tərəfindən zəruri məlumatlar təmin edilmədiyi üçün "SmartFinLink" MMC-nin öz serveri üçün eyni funksionallığı yarada bilmədiyi əks olunmuşdur.

§26 Topçubaşov İnzibati Məhkəməsi 8 may 2025-ci il tarixli qərarı ilə iddianı rədd etmişdir. Məhkəmə qərarında göstərmişdir ki, Agentliyin qərarı qanunvericiliyə uyğundur, çünki Məcəllənin 16.4-cü maddəsində obyektiv zərurilik nəzərdə tutulur və "AzeBytecs" MMC-nin təhlükəsizliklə bağlı arqumentləri bu əsaslara uyğun gəlir. Məhkəmə əlavə müstəqil yoxlamanın tələb olunmadığını, Agentliyin araşdırma zamanı tərəflərin dəlillərini nəzərdən keçirdiyini, texniki və iqtisadi meyarları balanslaşdırdığını müəyyən etmişdir. "SmartFinLink" MMC-nin bazardan çıxmasının əsas səbəbi kimi texniki standartlara uyğunluğun təmin edilməməsini qeyd etmişdir.

§27 "SmartFinLink" MMC qərardan narazı qalaraq 30 may 2025-ci il tarixində Topçubaşov Apellyasiya Məhkəməsinə müraciət etmiş və birinci

instansiya məhkəməsinin işin hallarını tam və hərtərəfli araşdırmadığını, obyektiv zərurilik anlayışını düzgün təfsir etmədiyini iddia etmişdir.

§28 24 iyun 2025-ci il tarixli qərarda Topçubaşov Apellyasiya Məhkəməsi birinci instansiyanın qərarını qüvvədə saxlamışdır. Məhkəmə “AzeBytecs” MMC-nin təhlükəsizlik siyasətinin sadəcə kommersiya arqumenti olmadığını və ictimai təhlükəsizlik, məlumatların mühafizəsi ilə əlaqədar olduğunu qeyd etmişdir. Əlavə olaraq, Məcəllənin 16.4-cü maddəsində əks olunan obyektiv zərurilik anlayışının geniş olduğunu və bu ifadənin şərh edilməsinin inzibati orqanın diskresion səlahiyyətlərinə aid olmasını bildirmişdir.

§29 “SmartFinLink” MMC qərardan sonra 15 iyul 2025-ci il tarixində Ali Məhkəməyə kassasiya şikayəti ilə müraciət etmişdir. Ali Məhkəmə 12 avqust 2025-ci il tarixində apellyasiya instansiya məhkəməsinin qərarı ilə eyni məzmunlu qərar qəbul edərək kassasiya şikayətini təmin etməmişdir.

§30 “SmartFinLink” MMC Ali Məhkəmənin qərarından sonra 2025-ci ilin sentyabr ayında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət etmişdir.

§31 İş Konstitusiya Məhkəməsinin icraatına qəbul edilmişdir. Tərəflər[1] Ali Məhkəmənin qərarının Azərbaycan Respublikası Konstitusiyasının 15 və 59-cu maddələrinə uyğunluğunun yoxlanılması üçün aşağıdakı məsələləri özündə ehtiva edən mülahizələrini Konstitusiya Məhkəməsinə təqdim etməlidirlər:

[1] “SmartFinLink” MMC-nin yazılı təqdimatı “Ərizəçi” kimi, Agentliyin yazılı təqdimatı isə “Cavabverən” kimi işarələnməlidir.

a) Agentliyin hökmran mövqedən sui-istifadə edən təsərrüfat subyektinə münasibətdə mövqeyi dövlətin azad sahibkarlığı qorumaq üzrə pozitiv öhdəliyi ilə ziddiyyət təşkil edirmi?
b) "Nou-hau"nun qorunması məqsədilə tətbiq olunan şərtlər azad sahibkarlıq hüququnun həyata keçirilməsinə münasibətdə zəruri məhdudiyyət hesab oluna bilərmi?
c) Obyektiv zərurilik anlayışı geniş şərh olunubmu və nəticədə, hüquqi müəyyənlik prinsipi pozulubmu?
d) "AzeBytecs" MMC-nin dəlilləri əsasında ayrıca müstəqil yoxlama aparılmadan qərar qəbul edilməsi hamının qanun qarşısında bərabərliyi və hüquqların inzibati və məhkəmə müdafiəsi prinsiplərini pozurmu?

**Qoşma 1. Xəbərlər və yeniliklər**

Böyük məmnuniyyət hissi ilə bildiririk ki, "AzeBytecs" MMC komandasının uzun müddət üzərində işlədiyi "AzeCloud 5.0" bulud platforması sınaq üçün nəzərdə tutulmuş üç aylıq istifadədən və bir sıra təkmilləşdirmələrdən sonra artıq istifadəyə hazırdır. Beynəlxalq standartlara cavab verən "AzeCloud 5.0" ölkəmizdə informasiya texnologiyaları sahəsində baş verən sürətli inkişafdan xəbər verir və belə bir platformanın ölkədə istifadəyə verilməsi "AzeBytecs" MMC ailəsi üçün böyük qürur mənbəyidir.

Bununla bağlı bildirmək istərdik ki, platformamızın əsaslandığı beynəlxalq təhlükəsizlik protokollarına uyğun yeni versiyasının tətbiqi ilə əlaqədar əməkdaşlıq prosedurlarına yeni dəyişiklik və əlavələr edilir:

a) Yeni tətbiqi proqramlaşdırma interfeyslərinin "əlçatanlıq şərtləri"nə *(access policy clause)* əsasən, yalnız "AzeBytecs" MMC tərəfindən sertifikatlaşdırılmış ödəniş sistemləri serverlərə qoşula bilər. Hal-hazırda "AzeBytecs" MMC-nin veb-saytında sertifikatlaşdırılmış ödəniş sistemlərinin siyahısında yalnız "AzeBytecs" MMC-nin daxili məhsulu olan "AzeMonexPay" mövcuddur.
b) "Təhlükəsizlik Protokolu"na *(Security Compliance Clause)* əsasən, Tərəfdaş şirkətlərdən ISO/IEC 27001 və PCI DSS Level 1 standartlarına uyğunluq sənədləri tələb olunur.
c) Standart xidmət müqaviləmizə edilən əlavəyə əsasən, "AzeBytecs" MMC istənilən Tərəfdaşın tətbiqi proqramlaşdırma interfeysi sisteminə inteqrasiyasını texniki təhlükəsizlik səbəbilə birtərəfli qaydada dayandıra bilər.
d) "AzeBytecs" MMC-nin "Təhlükəsizlik və uyğunluq Qaydaları"na əsasən, Tərəfdaşların sistem inteqrasiyaları üzrə audit tələbi mövcuddur və bu audit həm "AzeBytecs" MMC-nin daxili audit komandası, həm də "AzeBytecs" MMC tərəfindən akkreditasiya olunmuş kənar audit şirkətləri tərəfindən həyata keçirilə bilər.

e) "AzeCloud 5.0" bulud platformasına dair texniki şərtlərin göstərildiyi "İnteqrasiya uyğunluğu Təlimatı" *(Integration Compliance Manual)* əlavə olunur.

Bütün mövcud Tərəfdaşlarımızdan və bizimlə gələcəkdə əməkdaşlıq etmək istəyən Tərəfdaşlardan yuxarıdakı əlavə və dəyişikliklərlə tanış olmaqları, hər hansı sualları olarsa, beş iş günü ərzində "Partner Portal" vasitəsilə ünvanlamaları xahiş olunur.

Hörmətlə,
Bulud Tufanov
Tərəfdaşlarla əməkdaşlıq şöbəsinin müdiri
Tarix: 05 dekabr, 2024

**Qoşma 2. Köhnə tətbiqi proqramlaşdırma interfeyslərinə deaktiv edilməsi və yeni şərtlərin qüvvəyə minməsi barədə bildiriş**

Hörmətli Tərəfdaş,

Bu məktub vasitəsilə sizə məlumat veririk ki, 15 yanvar 2025-ci il tarixindən etibarən "AzeBytecs" MMC tərəfindən hazırda istifadə olunan tətbiqi proqramlaşdırma interfeysləri deaktiv ediləcəkdir.

"AzeBytecs" MMC-nin ekosistemində rəqəmsal təhlükəsizliyin artırılması, məlumatların mühafizəsi və milli rəqəmsal infrastrukturun möhkəmləndirilməsi məqsədilə yeni tətbiqi proqramlaşdırma interfeysləri platformamız hazırlanmışdır. Yeni platformanın texniki və digər xüsusiyyətləri ilə "Partner Portal"ın "Yeniliklər" hissəsinə daxil olmaqla tanış ola bilərsiniz.

Bununla əlaqədar olaraq, əməkdaşlığın davam etdirilməsi üçün bütün Tərəfdaşlardan yeni tətbiqi proqramlaşdırma interfeysləri platformasının xüsusiyyətləri ilə tanış olaraq yeni platformanın texniki xüsusiyyətlərinin qəbul edilməsini təsdiq edən dəyişiklik müqaviləsini (əlavə olunur) imzalayıb 26 dekabr tarixinədək "AzeBytecs" MMC-nin baş ofisinə təqdim etmələri tələb olunur. Bu tarixədək dəyişiklik müqaviləsinin imzalanıb təqdim olunmaması "AzeBytecs" MMC ilə Tərəfdaş arasında mövcud olan Müqavilənin xitamına səbəb olacaqdır.

Əlavə məlumat və dəstək üçün aşağıdakı elektron poçt və yaxud nömrə vasitəsilə bizimlə əlaqə saxlaya bilərsiniz:
Elektron poçt: support@azebytecs.com
Telefon: +994(50) 210-78-09

Hörmətlə,
Raqib Məmmədli
Sistem inteqrasiyasına nəzarət şöbəsinin müdiri
Tarix: 13 dekabr, 2024

**Qoşma 3. Bulud infrastrukturundan istifadəyə dair Müqaviləyə əlavə**

1. Azərbaycan Respublikası qanunları əsasında təsis edilmiş, hüquqi ünvanı Bakı şəhəri, Səbail rayonu, Neftçilər Prospekti 153 olan, VÖEN: 7394826151 olan "AzeBytecs" Məhdud Məsuliyyətli Cəmiyyəti
   və
2. Azərbaycan Respublikası Qanunları əsasında təsis edilmiş, hüquqi ünvanı [●] olan, VÖEN: [●] olan _ (bundan sonra "Tərəfdaş")

(ayrılıqda "Tərəf", birlikdə "Tərəflər")

**Nəzərə alsaq ki,**

**(A) Tərəflər [●] tarixində Bulud infrastrukturundan istifadəyə dair Müqavilə (" Müqavilə") imzalamışlar;**

**(B) Tərəflər bu Əlavə ilə Müqavilə şərtlərinə əlavə və dəyişikliklərin edilməsi barədə razılığa gəlmişlər;**

**Tərəflər razılaşırlar ki, Müqaviləyə aşağıdakı əlavə və dəyişikliklər edilir:**

*1.* Müqaviləyə aşağıdakı redaksiyada 1.13-cü bənd əlavə edilsin:

*"1.13.* ***Tətbiqi proqramlaşdırma interfeysi (application programming interface)*** *müxtəlif proqram və sistemlərin qarşılıqlı əlaqəsini, məlumat mübadiləsini və funksional inteqrasiyasını təmin edən standartlaşdırılmış texniki interfeys olaraq başa düşülür."*

**2. Tərəflər Razılaşır:**

2.1. 15 yanvar 2025-ci il tarixindən etibarən "AzeBytecs" MMC tərəfindən istifadədə olan bütün köhnə tətbiqi proqramlaşdırma interfeysləri tam şəkildə deaktiv ediləcək və bu tarixdən sonra yalnız "AzeCloud 5.0" platforması üzərindən inteqrasiya və məlumat ötürülməsi mümkün olacaqdır. Tərəfdaş bu keçidin təhlükəsizlik protokollarının tələbi olduğunu qəbul edir.

2.2. "AzeCloud 5.0" platformasında yalnız "AzeBytecs" MMC tərəfindən sertifikatlaşdırılmış ödəniş sistemlərindən istifadə edilə biləcək və hazırda bu siyahıda yalnız "AzeMonexPay" məhsulu mövcuddur. Tərəfdaş hər hansı digər ödəniş sistemindən istifadə etmək istədikdə həmin sistemin "AzeBytecs" MMC tərəfindən sertifikatlaşdırılması üçün müraciət etmək təşəbbüsünün birbaşa öz üzərinə düşdüyünü, sertifikatlaşdırma prosesinin

başlanması və tamamlanması üçün bütün zəruri sənədlərin, texniki məlumatların və inteqrasiya nümunələrinin təqdim edilməsinə dair tam məsuliyyət daşıdığını qəbul edir. Tərəfdaş tərəfindən sertifikatlaşdırılmamış ödəniş sistemlərinin istifadəsi qadağandır və belə istifadənin yaratdığı bütün hüquqi, maliyyə və texniki nəticələrə görə Tərəfdaş tam məsuliyyət daşıyır.

2.3 Tərəfdaş qəbul edir ki, "AzeCloud 5.0" və "DataNoryX" modulu çərçivəsində təqdim edilən proqram alqoritmləri və istifadə qaydaları "AzeBytecs" MMC-nin "nou-hau"su hesab olunur və kommersiya sirri çərçivəsində qorunur. Tərəfdaşın bu sistemlərə çıxışı yalnız inteqrasiya məqsədləri ilə məhdudlaşır. Tərəfdaş və ya onun cəlb etdiyi hər hansı üçüncü tərəf bu texnologiyanın işləmə prinsipini təqlid edə və ya "AzeBytecs" MMC-nin yazılı icazəsi olmadan üçüncü şəxslərə açıqlaya bilməz. "AzeBytecs" MMC "nou-hau"nun qorunması məqsədilə audit prosesinin həyata keçirilmə üsuluna və məlumatların əlçatanlıq səviyyəsinə birtərəfli qaydada məhdudiyyət qoymaq hüququna malikdir.

2.4. Köhnə platformadakı məlumatların silinməsi, köçürülməməsi və ya uyğunsuzluq səbəbi ilə yaranan hər hansı məlumat itkisinə görə "AzeBytecs" MMC məsuliyyət daşımır. Tərəfdaş öz məlumatlarını yeni sistemə vaxtında və Müqavilənin tələblərinə uyğun köçürməyi öhdəsinə götürür.

2.5. Tərəfdaş yeni tətbiqi proqramlaşdırma interfeysi platformasının texniki xüsusiyyətləri, o cümlədən "AzeBytecs" MMC-nin "Təhlükəsizlik Protokolu"nun tələbləri ilə tanış olduğunu və bu tələblərə daimi uyğunluğu təmin etməyi öhdəsinə götürür.

Buraya ISO/IEC 27001 və PCI DSS Level 1 standartlarına uyğunluq daxil olmaqla, bütün təhlükəsizlik sənədlərinin təqdim edilməsi və mütəmadi yenilənməsi daxildir.

2.6. Tərəfdaş bütün inteqrasiyaların yeni tətbiqi proqramlaşdırma interfeysi platformasına uyğunlaşdırılması üçün tələb olunan dəyişiklikləri öz infrastrukturunda həyata keçirməyi və texniki təhlükəsizlik tələblərinə cavab verməyən bütün komponentləri yeniləməyi öhdəsinə götürür.

2.7. Tərəfdaş "İnteqrasiya uyğunluğu haqqında Təlimat"ın bütün müddəaları ilə tanış olduğunu, təlimatın hüquqi qüvvəsini qəbul etdiyini və orada

göstərilən texniki, təhlükəsizlik və əməliyyat tələblərinin tam icrasına razı olduğunu təsdiq edir.

2.8. “AzeBytecs” MMC-nin “İnteqrasiya uyğunluğu haqqında Təlimat”ına uyğun olaraq sistem inteqrasiyası üzrə audit tələblərinin icrası məcburidir. Tərəfdaş öz infrastrukturunda uyğunluğun qiymətləndirilməsi məqsədilə “AzeBytecs” MMC tərəfindən əvvəlcədən akkreditasiya olunmuş kənar audit şirkətlərindən hər hansı birindən audit xidmətinin alınmasını öhdəsinə götürür. Tərəfdaş audit prosesinin başlanmasından ən azı 10 (on) iş günü əvvəl “AzeBytecs” MMC-ni yazılı qaydada məlumatlandırmalı, auditin vaxtı, əhatə dairəsi və seçilmiş audit şirkəti barədə bütün məlumatları təqdim etməlidir. Tərəfdaş audit nəticələrinin “AzeBytecs” MMC-nin tələblərinə uyğun olaraq açıqlanmasını və audit zamanı müəyyən edilmiş bütün uyğunsuzluqların aradan qaldırılmasını təmin etməyi öhdəsinə götürür.

2.9. Tərəfdaş təsdiq edir ki, bu Əlavənin bütün şərtlərini qəbul etdiyini nəzərə alaraq, imzalanmış nüsxəsini ən gec 26 dekabr 2024-cü il tarixinədək “AzeBytecs” MMC-nin baş ofisinə təqdim etməlidir. Tərəfdaş həmçinin keçid prosesinin vaxtında tamamlanmamasından və ya texniki tələblərin yerinə yetirilməməsindən yaranacaq bütün xidmət fasilələri və uyğunsuzluqlar üçün tam məsuliyyət daşıyacağını qəbul edir. “AzeBytecs” MMC isə inteqrasiya və keçid prosesini təmin etmək məqsədilə Tərəfdaşa zəruri təlimat və texniki dəstək xidmətlərini göstərməyi öhdəsinə götürür və Tərəfdaşdan Müqavilə üzrə bütün texniki tələblərin ödənilməsi prosesinin ən gec 10 yanvar 2025-ci il tarixinədək tamamlanmasını təmin etməsini tələb edir.

3. Bu Əlavə mövcud Müqavilənin ayrılmaz hissəsi hesab olunur və onun müddəalarına uyğun şəkildə tətbiq edilir. Bu Əlavə ilə tənzimlənməyən digər bütün müddəalar Müqavilədə razılaşdırılan qaydada saxlanılır.

4. Bu Əlavə tərəflərin qarşılıqlı razılığı ilə imzalandıqdan dərhal sonra qüvvəyə minir.

5. Tərəflər arasında yaranan hər hansı mübahisə Müqavilədə göstərilmiş qaydada həll olunur.

6. Tərəflərin Rekvizitləri və İmzaları (imza və möhür var).

**<u>Qoşma 4. Agentliyə müraciət</u>**

**“SmartFinLink” MMC**

Bakı şəhəri, B.Vahabzadə küç 5
Telefon: +994(12) 425777
Elektron poçt:
contact@smartfinlink.com

Azərbaycan Respublikasının
Prezidenti yanında Antiinhisar və
İstehlak Bazarına Nəzarət Dövlət
Agentliyinə

Hörmətli cənablar/xanımlar,

Biz, “SmartFinLink” MMC (VÖEN:1567561336; hüquqi ünvanı: Bakı şəhəri, B.Vahabzadə küç 5, 11-ci mərtəbə) olaraq, “AzeBytecs” MMC-nin ölkədə rəqəmsal infrastrukturun mühüm hissəsini təşkil edən tətbiqi proqramlaşdırma interfeysi və bulud resurslarına çıxışımızı məhdudlaşdırması nəticəsində yaranmış rəqabət pozuntusunun qiymətləndirilməsi məqsədilə Sizə müraciət edirik. Müraciətimizin əsasını təşkil edən hallar “AzeCloud 5.0” sisteminə keçid zamanı tətbiq edilən yeni texniki tələblər və “SmartFinLink” MMC-nin fəaliyyətinin əsasını təşkil edən tətbiqi proqramlaşdırma interfeysi girişinin 15 yanvar 2025-ci il tarixində birtərəfli şəkildə dayandırılmasıdır.

“AzeBytecs” MMC-nin tətbiq etdiyi məhdudiyyətlər nəticəsində “SmartFinLink” MMC müştərilərini itirmiş və bazarda sıxışdırılmışdır. Bu resurs (“AzeBytecs” MMC-nin tətbiqi proqramlaşdırma interfeysi və bulud infrastrukturu) “SmartFinLink” MMC-nin xidmətlərinin təşkil edilməsi üçün mühüm əhəmiyyət daşıdığı halda, şirkət həmin resursa çıxışdan səbəbsiz şəkildə məhrum edilmişdir.

Bu hallar Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 16.2.4 və 16.2.9-cu maddələrində təsbit olunmuşdur. Belə ki, əsaslar olmadan uyğun ödəniş müqabilində məhsulun və ya ümumi istifadə üçün yaradılmış şəbəkənin resurslarından istifadəyə çıxışın əsassız rədd edilməsi iqtisadi cəhətdən mümkün və əlverişli olduğu halda rəqibin mühüm əhəmiyyətli resursdan istifadə imkanından məhrum edilməsi qanunvericiliklə qadağan

edilir. Mövcud süni intellekt modelinin alqoritmləri və məlumat bazası "AzeBytecs" MMC-yə məxsus olduğuna görə bu infrastruktur mühüm əhəmiyyətli resurs kimi qiymətləndirilməlidir. Həmçinin "AzeBytecs" MMC-nin digər provayderlərdən infrastruktur icarəyə götürmək və ya öz serverlərini qurmaq imkanına malik olması barədə fikirlərində müəyyən mübahisəli məqamlar mövcuddur. Belə ki, bu cür "server qurma" planlarının real şəkildə həyata keçirilməsi yalnız sözügedən alqoritmlər və məlumatlar təmin edildikdən sonra mümkündür. Bundan əlavə, başqa bulud xidmətinə keçmək böyük həcmdə köçürmə və yenidən inteqrasiya xərcləri tələb edir. Hazırkı vəziyyətdə bunun həyata keçirilməsi mümkün hesab edilmir.

"AzeBytecs" MMC-nin tələb etdiyi yeni texniki standartların zəruriliyi müstəqil audit və ya sübutlarla təsdiq edilməmişdir. Bu vəziyyət azad rəqabətin məhdudlaşdırılması ilə yanaşı, sahibkarlıq subyektlərinin bazara çıxış imkanlarına birbaşa təsir göstərir.

Qeyd olunanlar əsasında Agentlikdən mövqeyimizə münasibət bildirərək "AzeBytecs" MMC-nin hərəkətlərinin Məcəllənin tələblərinə zidd olmasını, hökmran mövqedən sui-istifadə kimi qiymətləndirilməsini və müvafiq tədbirlərin görülməsini xahiş edirik.
Bu məsələyə göstərdiyiniz diqqətə görə minnətdarıq və cavabınızı gözləyirik.

Hörmətlə,
Tacir Nadirli
Komplayens şöbəsinin baş məsləhətçisi
Tarix: 22 fevral, 2025

**Qoşma 5. Agentliyin cavabı**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi**

Bakı şəhəri, Səbail rayonu,
Üzeyir Hacıbəyov küçəsi, 84
Hökumət Evi
Faks: (+99412) 497248
Elektron poçt:
office@competition.gov.az
14 mart, 2025-ci il
№274/2158/2025

"SmartFinLink" MMC-nin
Komplayens şöbəsinin baş
məsləhətçisi Tacir Nadirliyə

Hörmətli Tacir bəy,

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə daxil olmuş 22 fevral 2025-ci il tarixli müraciətinizə aidiyyəti üzrə baxılmışdır.

Bildiririk ki, müraciətinizdə qeyd olunan "AzeBytecs" MMC-nin tətbiqi proqramlaşdırma interfeysinə girişlərin məhdudlaşdırmasınana dair iddialar həm texniki, həm də iqtisadi cəhətdən qiymətləndirilmiş, müvafiq dövlət orqanları və müstəqil ekspertlərdən alınmış məlumatlar nəzərdən keçirilmişdir.

Aparılmış araşdırmalar zamanı "AzeBytecs" MMC-nin təqdim etdiyi "2024-cü ilə üzrə Risklərin dəyərləndirilməsinə dair Hesabat"ı nəzərdən keçirilmiş, "SmartFinLink" MMC-nin "AzeCloud 5.0" platforması ilə uyğunluq səviyyəsi qiymətləndirilmişdir. Nəticədə, məlum olmuşdur ki, "SmartFinLink" MMC-nin sistemləri hazırda yalnız TLS 1.2 protokolundan istifadə edir, halbuki "AzeCloud 5.0" platforması yalnız TLS 1.3 protokolunu dəstəkləyir. Məlumat

axınının mərkəzləşdirilmiş nəzarət serverindən keçməsi, eləcə də 2024-cü il ərzində "SmartFinLink" MMC-də baş vermiş təhlükəsizliklə bağlı 3 insident ümumi risk səviyyəsini yüksəldən amillər kimi qiymətləndirilmişdir. Təqdim edilən sənədlərdən aydın olmuşdur ki, "SmartFinLink" MMC PCI DSS Level 1 və ISO/IEC 27001 sertifikatları üzrə audit olunmamışdır.

"AzeBytecs" MMC tərəfindən təqdim edilmiş məlumatlarda həmçinin bildirilmişdir ki, o, bulud infrastrukturunda dövlət və kommersiya məlumatlarını saxladığından rəqəmsal suverenlik prinsipi çərçivəsində üçüncü tərəfin birbaşa girişlərinə məhdudiyyət tətbiq edir. Agentlik tərəfindən bu əsaslar texniki təhlükəsizlik baxımından obyektiv meyar kimi qiymətləndirilmişdir.

Eyni zamanda Rəqabət Məcəlləsinin 2-ci maddəsində nəzərdə tutulduğu kimi, rəqabət qanunvericiliyi əqli mülkiyyət hüquqlarının məhdudlaşmasına səbəb olmamalıdır. Belə ki, "AzeBytecs" MMC tərəfindən tətbiq edilən bəzi şərtlər və alqoritmlərlə bağlı məhdudiyyətlər onun "nou-hau" hüquqlarının qorunmasına yönəlmişdir. Odur ki, "AzeBytecs" MMC tərəfindən edilən hərəkətlər əqli mülkiyyət hüquqlarının müdafiəsi kimi qiymətləndirilir və rəqabət pozuntusu hesab olunmur.

Nəticədə, müraciətdə göstərilən hallar üzrə "AzeBytecs" MMC-nin hərəkətləri qanunvericilikdə nəzərdə tutulan obyektiv zərurilik anlayışının əhatə dairəsinə düşür və hər hansı rəqabət qanunvericiliyini pozmur.

Gələcəkdə oxşar halların təkrarlanmaması üçün "SmartFinLink" MMC-yə təhlükəsizlik sertifikatlarının yenilənməsi tövsiyə olunur.

Hörmətlə,
Nihat Səmədov
İstehlak bazarına nəzarət şöbəsinin katibi